# Sosial Stereotiplər və Milli Mental Dəyərlər Kontekstində Tibbi Problemlər: Xalq Təbabətindən Rəqəmsal Tibbi Folklora

Hikmət Quliyev
AMEA Folklor İnstitutu, Bakı, Azərbaycan
*quliyevh@mail.ru*

**Xülasə — Məqalədə folklorun xüsusi bir istiqaməti olan xalq təbabəti məsələsinə sosial-antropoloji folklorşünaslıq və rəqəmsal transformasiyalar aspektindən yanaşılmış problemin nəzəri-metodoloji aspektləri təhlil olunmuşdur. Folklora sosial-antropoloji yanaşma "xalq" və "bilik" anlayışlarının dinamik, kollektiv və mədəni kontekstini araşdırmağa imkan verir. Xalq – ortaq maraqlar və dəyərlər əsasında birləşən sosial qrup olaraq ətraf mühitlə qarşılıqlı əlaqələr nəticəsində kollektiv bilik yaradır. Bu bilik folklorun müxtəlif sahələrində – xalq sənətkarlığı, xalq musiqisi, xalq rəqsləri və xüsusilə xalq təbabətində təcəssüm edir. Bununla yanaşı, xalq təbabəti yalnız xəstəliklərin müalicəsi deyil, həm də etnosun mədəni kimliyini, dünya görüşünü və "komfortlu" yaşam tərzini əks etdirir. Empirik müşahidələrə və çoxsaylı sınaqlara əsaslanan bu təbabət forması müasir dövrdə də aktuallığını saxlayır. Azərbaycan təbiətinin məhsulu olan dərman bitkiləri və onların istifadəsi ilə bağlı xalq təcrübəsi böyük bir məlumat bazası ("Big Data") yaradır ki, bu biliklər müasir texnologiyalarla təhlil edilərək faydalı elmi nəticələrə çevrilə bilər.**

***Açar sözlər: xalq təbabəti, rəqəmsal tibb, tibbi folklor, sosial stereotiplər, mental dəyərlər, rəqəmsal folklor***

## I. GIRIŞ: PROBLEMIN QOYULUŞU

Folklora sosial-antropoloji rakursdan yanaşma "xalq" və "bilik" anlayışları arasındakı münasibətlərin dinamik, kommunikativ, multikultural, lokal və qlobal, fərd və kollektiv (sosial qrup) və s. rakurslardan dəyərləndirilməsi üçün geniş metodoloji alətlər sistemi təqdim edir. Başqa cür desək, xalq – "ən azı iki şəxsdən" [1: 6-7] ibarət olan sosial qrup kimi özünün "ortaq, şərikli" hesab etdiyi faktorlar – maraq, mövqe, ideoloji təmayül, peşə, din, dil, etnik mənsubiyyət və s. əsasında "bilik" yaradır. Kollektiv düşüncəyə və ənənəyə əsaslanan həmin bilik insanın ətraf dünya – təbiət, cəmiyyət və s. ilə münasibətləri əsasında formalaşır. Bu baxımdan folklor xalq memarlığı, xalq meteorologiyası, xalq sənətkarlığı (xalçaçılıq, dulusçuluq, dabbaqçılıq, sazbəndlik və s.) xalq mahnıları, xalq rəqsləri, xalq təbabəti və s.-ni əhatə edir. Şübhəsiz ki, praktik müşahidə və təcrübələr, qazanılan vərdişlər, formalaşan ənənələr kollektiv fantaziya və yaradıcılıq "laboratoriyasından" keçməklə sosial kommunikasiya vasitəsilə ötürülə, yayıla, variantlaşa bilir. Bu isə o deməkdir ki, müasir dövrdə rasional, məntiqi struktura, anlayışlar sisteminə malik olan elmi bilik və fənn sahələrinin qaynağı və ya mayasında bu və ya digər şəkildə olmaqla ənənəvi xalq biliyi dayanır. Beləliklə, xalq təbabəti də kollektiv mühitdə formalaşan, ənənəvi düşüncə qəlibləri və stereotipləri vasitəsilə ötürülən, tabu, yasaq və inancla dəstəklənən müxtəlif xəstəliklərin müəyyənləşdirilməsi (diaqnostik), müalicəsi (profilaktik) və qarşısının alınması (preventiv) praktikalarını özündə ehtiva edən ənənəvi bilik xəzinəsidir. Lakin rasional, peşəkar tibdən fərqli olaraq, xalq təbabəti//türkəçarə//xalq həkimliyi inanc psixologiyası, sosial stereotiplər və milli mentalitet üzərində qurulduğundan burada irrasional "məntiqə", emosional "ağıla" söykənən fantaziyanın metaforik-simvolik təzahürü özünü göstərməkdədir. Ümumiləşdirərək deyə bilərik ki, xalq təbabəti, əsasən, aşağıdakı mənbələrə söykənir:

- ✓ sakral biliklər (ocaq, pir, dua və s.);
- ✓ nəsildən-nəsilə ötürülən təcrübə;
- ✓ kollektiv mədəni yaddaş;
- ✓ sosial stereotiplər və etnik mental dəyərlər;

Deməli, xalq təbabətində və ya türkəçarələrdə mövcud olan bilik rasional məntiqə, elmə deyil, empirik təcrübəyə inanca və yaxud inama əsaslanır. Yuxarıda fərqləndirdiyimiz kateqoriyalara nəzər salanda məlum olur ki, inanc sistemi mədəni kimliyi formalaşdıran mənbələr üzərində qurulduğundan buradakı biliklə etnos (sosial qrup) arasında emosional bağlılıqdan doğan doğmalıq, yaxınlıq mövcuddur. Daha doğrusu, milli mental dəyərlər və sosial stereotiplər fərdin sosial qrup içərisində davranış və düşüncələrini nizamlayan tabu və yasaqlar, ictimai qınaq və yarğıları özündə ehtiva edir. Necə ki, dinlər, ideoloji təlim və cərəyanlar sosial mühitdəki davranış və düşüncələri konkret ehkam və hökmlərlə, norma və qaydalarla tənzimləyir, eləcə də milli mental dəyərlər və sosial stereotiplər də sosial mühitdəki davranışların əsas tənzimləyici elementləridir. Odur ki, xalq təbabəti, türkəçarə və yaxud xalq həkimliyi, təkcə bu və ya digər xəstəliklə mübarizə, narahatlıq və yaxud ağrı-acının müalicəsi, eləcə də qarşısının alınma üsulu deyil, fərdin, sosial qrupun, bütövlükdə, etnosun aid olduğu mədəni sistem, etnik-milli kimlik, ənənəvi dəyərlər içərisində "komfortlu" yaşam tərzidir. Alev Öztürk Merdin xalq təbabətinin hazırki çağda da aktual olmağının səbəblərindən biri kimi *"şəhərdə yaşayan şəxslərin təbii yaşamdan izolyasiya olmaları"*nı [5: 182] irəli sürür. Əslində kənd həyatına, arxaik əşya və simvollara olan bu

*DOI: 10.25045/SPCDH4.0.2025.30*

münasibətin əsasında keçmişin ideallaşdırılması, kultlaşdırılması, keşmişə duyulan nostalgiya əsas rol oynayır.

Nümunələrə diqqət yetirək:

Uşağın başı ağrıyarsa sacarası, niyaz bişirib vermək lazımdır [3: 367];

“Uzun müddət xəstə, dili tutulan, problemli, tutmalı (özündəngedən) və bu qəbildən olan digər adamları son anda çarə kimi torpaqdan keçirərdilər” [3: 367];

“Uşağı bələyəndən sonra əlini yerə toxundurub kürəyinə vurardılar və deyərdilər: “Yuxum sənin” [3: 374];

Göz səyriyəndə qırmızı sap qoymaq laızmdır [3: 375].

Nəzərə almaq lazımdır ki, xalq təbabəti inanc mərkəzinə - ocaq, pir, seyidin kəraməti və s.-yə söykəndiyindən onun özünəxas (türkə) çarə üsulları da vardır. Məsələn, “qurban kəsmək”. Uşaq xəstələnəndə və yaxud kritik bir vəziyyət yarananda onun sağalması, xilas olması üçün “qurban deyilir”.

Proseslərin səbəb-nəticə zəncirində dəyərləndirilməsinə, başlanğıc, ilkin səbəbin rasional gerçəklik üzərində qurulmasına söykənən rəsmi tibdən fərqli olaraq, xalq təbabəti eyni məntiqi əməliyyatın təməlini metafiziki, fövqətləbii (cin vurmaq, hal aparmaq) gerçəkliklə əlaqələndirir. Səbəb-nəticə zəncirindəki bu fərq, əslində, xalq təbabətinin əsas məqsədi sağaltmaq olan rasional tibdən daha fərqli sosial-mədəni gerçəkliyə malik olduğunu, etnosun semiosferi, kollektiv mədəni yaddaş və təcrübəsinin, emosional-psixoloji reakasiyasının içərisində mənalandığının göstəricisidir. Başqa cür desək, xalq təbabəti və ya türkəçarə təkcə müalicə praktikasından ibarət deyildir. Buradakı biliklər etnik mədəni sistemin müxtəlif vahidləri daxilində mənalı görünən metamənalardan təşkil olunmuşdur. Odur ki, xalq təbabəti və ya türkəçarə ona inananların yaratdığı, istifadə etdiyi, faydasını gördüyü sosial-mədəni dəyərlər sisteminə malikdir. Təsadüfi deyildir ki, *“xalq həkimliyi başlanğıcdan bugünümzə qədər ənənə daxilində mövcud olan məlumatlardan ibarət bir mədəni sahədir”* [5: 177].

Müasir dövrdə – səhiyyənin inkişafının hazırki mərhələsində, ən yüksək imkanlara malik tibbi diaqnostik cihazların mövcudluğu, ciddi nəticə və sınaqlara əsaslanan rəsmi tibbi müalicə protokollarının var olduğu bir şəraitdə xalq təbabətinə, türkəçarəyə inam o qədər də sarsılmamış, əksinə, çevik, mobil, sürətli kommunikasiya imkanları hesabına, rəqəmsal-texnoloji platformaların təsiri ilə bu tipli kontentlərin, veb resursların sayı artmaqdadır. Çünki insanlararası informasiya mübadiləsi və ünsiyyətin “apogeyi” [2] hesab olunan İnternet hər cür informasiya və biliyi rəqəmsal mühitə transformasiya etdirməkdədir. Həm də nəzərə almaq lazımdır ki, İnternet sosio-texnoloji sistem olduğundan bilik, düşüncə, davranış, dəyər və ənənə daşıyıcısı olan insanları bütün potensial imkanları ilə bərabər informasiya “okeanına” gətirir. Sosio-texnoloji sistem tenokulturoloji transformasiyalar hesabına yeni mühitə, şəraitə, əlavə imkan və təsirlərə məruz qalır ki, belə bir gerçəklik spesifik, unikal, vernakular biliklərin də ortaya çıxmasına şərait yaradır. Bu gün sosial şəbəkələr, çevik rəqəmsal platformalar müxtəlif məqsəd və maraqlar ətrafında birləşən sosial qruplardan, həmin sosial qruplar isə çoxsaylı fərdlərdən təşkil olunmuşdur. Şübhəsiz ki, belə bir gerçəklik etnik-lokal tipli xalq təbabətinə dair biliklərin virtual etno mühitlərə transformasiyasına, yəni həmin biliyi daşıyanların virtual sosial şəbəkədə yaratdığı qrupların “gündəlik” kommunikasiyasına gətirib çıxarır. Bəzən keçmişin “xoş” xatirəsi, etnosun şərikli, ortaq nostalgiyası kimi paylaşılan nəsnələr (təndir, sac, dəryaz və s.), kənd həyatını assosiasiya etdirən hər hansı bir vizual kontent sosial qrupun üzvləri tərəfindən həssaslıqla qarşılanır, onların qrup kimliyini möhkəmləndirən faktor kimi çıxış edir. Eləcə də lokal etnik mühit üçün xarakterik olan müalicəvi praktika (məsələn, soyuqdəymənin keçi piyi, əriştə umacı və s. ilə müalicəsi) rəqəmsal texnoloji platformaya, virtual ünsiyyət ortamına transformasiya olunur ki, son nəticədə bu proses bir tərəfdən həmin biliyin daha geniş miqyasda yayılmasına, populyarlaşmasına, digər tərəfdən isə ənənəvi mühitdən fərqli sferalara çıxaraq fərqli reaksiya və münasibətlər içərisində dəyərləndirilməsinə (bəzən ironiya predmetinə çevrilməsinə) təsir edir. Nəticə etibarı ilə, bu proses lokal etnik çərçivə ilə məhdudlaşan ənənəvi biliyin çulğalaşmasına, hibridləşməsinə səbəb olur. Bu həm də ənənəvi sosial-mədəni mühit daxilində sakral məna, ezoterik mahiyyət, toxunulmazlıq daşıyan biliyin yeni diskursiv planlarda dəyərləndirilməsi prosesidir.

## II. STEREOTIP REAKSIYA VƏ MENTAL DƏYƏRLƏR KONTEKSTINDƏ TIBBƏ MÜNASIBƏT: FOLKLORIK METAFORALAR

Təbii ki, folklor fərdin və yaxud sosial qrupun, eləcə də etnosun ənənəvi, kollektiv davranış və düşüncələrini özündə ehtiva edən əməliyyat sistemi kimi də xarakterizə oluna bilər. Məkandan və zamandan asılı olmayaraq, fərdlərin sosial qrup içərisində mövcudluğu və fəaliyyəti sözün, leksik vahidin cümlənin sintaktik strukturunda qazandığı funksional semantika ilə müəyyənləşdir. Linqvistik planda bu proses şəxsə, kəmiyyətə, zamana və s. görə uzlaşma ilə tənzimləndiyi kimi, sosial mühitdə də fərdlər və ya sosial qruplararası münasibətlər stereotiplər və mental dəyərlər vasitəsilə nizamlanır. Sosial stereotiplər və mental dəyərlər isə, etnosun zamanla qazandığı təcrübəyə, ənənəvi düşüncə və normalara, tabu və yasaqlara, olar-olmazlara söykənir. Təbii ki, burada ənənəvi düşüncənin, ideoloji sistemlərin, bütövlükdə, sosial təsisatların təsiri mühüm rol oynayır. Azərbaycan sosio-mədəni mühitində konkret olaraq həkim, xəstə, xəstəlik, dərman, müalicə və s. kimi anlayışların stereotiplər, mental dəyərlərdən görünən neqativ çalarlı metaforaları da mövcuddur.

Hesab edirik ki, “heç vaxt həkimə möhtac olmayasan”, “iynəyə-dərmana düşməyəsən” dua-alqışı sadəcə olaraq, qarşıdakına sağlamlıq arzusunun ifadəsi deyil, həm də həkimə, iynəyə, dərmana neqativ münasibətin ifadəsidir. Həkimlərin “cəllad”, dərmanların “ximikat” (kimyəvi) olduğu barədə neqativ, stereotiplərə əsaslanan münasibət mövcuddur. Eyni zamanda antibiotiklərin, vaksinlərin insan səhhətinə ziyan vurması barədə yarğılar, sosial şəbəkələrdə xəstəliklərin tibb sənayesi, dərman biznesi ilə məşğul olan qlobal şirkətlər tərəfindən yaradılması, müalicəsinin gizlədilməsi barədə konspirativ nəzəriyyələr, şəhər əfsanələri, əslində, müasir dövrümüzdə də xalq təbabəti və türkəçarəyə emosional ehtiyacın, rəsmi tibbə qarşı neqativ mövqeyin – qeyri-şüuri müqavimətin folklorik metaforalarıdır.

Əslində, rəsmi tibbə qarşı olan belə münasibət bir tərəfdən **“ev üsulu müalicə”**, **“təbii müalicə”**, **“nənəmin resepti”** və s. kimi memləşmiş ifadə və hazır qəliblərin sosial mühitdə çox sürətlə yayılmasına, alternativ müalicə kimi aktuallaşmasına, müasir dövrdə xalq təbabəti biznes infrastrukturunun formalaşmasına şərait yaradır. Hazırki çağda, sosial şəbəkələrdə **“fenomen”**, **“influencer”**, **“life coach”** tipli fiqurların ortaya çıxması, **“özünü dinlə”**, **“bədənini hiss et”**, **“intuisiya ilə qərar ver”** kimi çağırış-şüarların meydana gəlməsi kimi faktlar da rəsmi tibdən kənar düşüncənin, təbii yaşama və müalicəyə - xalq təbabətinə emosional ehtiyacın ifadəsidir. Başqa cür desək, müasir dövrdə sosial şəbəkələrdə, virtual sosial platformaların hesabına meydana çıxan bu tipli sosial proseslər, əslində, rəsmi tibbə qarşı sosial müqavimətin təzahürlərindəndir.

Yaxud 2019-cu ilin sonlarında başlayan və 2020-ci ilin mart ayında pandemiya kimi elan olunan Koronavirusla bağlı rəsmi tibbi protokola alternativ müalicə üsulları meydana çıxdı. Korona dönəmində, xüsusən sosial şəbəkələr vasitəsilə şəhər mifləri, konspirativ nəzəriyyələr, xalq təbabəti virusla mübarizə və müalicə “üsulları” istehsal olunmağa başladı. Məsələn, “Zəncəfil koronanı sağaldır”, “Sarımsaq koronanı məhv edir”, “siqaret çəkənlər korona tutmur” və s.

Göründüyü kimi, sosial stereotiplər və mental dəyərlərlə tənzimlənən, inanc və ənənəvi düşüncə kontekstində xüsusi dəyər qazanan xalq təbabəti, türkəçarə və yaxud xalq həkimliyi üzrə biliklər onu yaradan sosiumun sosial-mədəni gerçəkliyi ilə birbaşa bağlıdır. Yəni ənənəvi mədəni yaddaşda, kollektiv sosial mühitdə xəstəlik, onun müalicəsi və qarşısının alınması ilə əlaqədar biliklər sosial strereotiplərlə tənzimləndiyi həkimə, xəstəliyə münasibət də həmin düşüncə və davranış çərçivəsindədir. Fərd öz davranış və düşüncələrini aid olduğu sosial qrupun, sosial qrup isə, bütövlükdə cəmiyyətin stereotipləri ilə nizamlayır. Belə bir gerçəklik xüsusilə də qadınların sosial stereotiplərin təzyiqi və milli mental dəyərlərin təsiri ilə öz xəstəliklərini gizlətməsinə, həkimə getməməsinə, müalicənin gecikdirilməsi və həyati təhlükələrin ortaya çıxmasına səbəb olur. Əslində “ayıbdı”, “camaat bizə nə deyər” və s. kimi sosial yarğılar sosial mühitdəki mühafizəkar münasibətin ifadəsi olmaqla ənənəvi düşüncənin stereotipləri dəstəkləyən metaforlarıdır.

## III. ƏNƏNƏVI XALQ BILIYININ INTERNETƏ TRANSFORMASIYASI: XALQ TƏBABƏTI VƏ RƏQƏMSAL TIBBI FOLKLOR

Nəzərə almaq lazımdır ki, təbabətlə bağlı məlumatlar təkcə ənənəvi xalq biliyi şəklində deyil, eyni zamanda müxtəlif tibbnamələrdə də öz əksini tapmışdır Belə ki, təbabətlə bağlı ənənəvi xalq biliyi tarixin müxtəlif mərhələlərində təbiblər, həkim və alimlər tərəfindən müalicə vasitəsi kimi tətbiq edilmiş, bu təcrübələri özündə ehtiva edən əlyazmalar ortaya çıxmışdır. Məsələn, 1712-ci ildə Məhəmməd Yusif Şirvani tərəfindən başqa bir mənbədən üzü köçürülən “Tibbnamə” əsərində *“babalarımızın müxtəlif xəstəlikləri necə müalicə etdikləri haqqında yığcam məlumat verilir”* [6: 3]. Şübhəsiz ki, istər xalq arasında şifahi şəkildə yaşayan, nəsildən-nəsilə ötürülərək ənənəvi tibbi biliyə çevrilən, istərsə də, ayrı-ayrı şəslər tərəfindən yazıya alınaraq əlyazmalarda bizə gəlib çatan təbabətlə bağlı məlumatlar təkcə təcrübəyə əsaslanmır. Başqa cür desək, buradakı bilik yalnız təcrübə ilə deyil, eyni zamanda inanc və ənənə ilə tənzimlənir. Təsadüfi deyildir ki, Məhəmməd Yusif Şirvaninin “Tibbnamə” əsərinə “Ön söz” yazan M. Sultanov və A.Fərzəliyev qeyd edir ki, “Əsərdə tez-tez *“Allahın köməyilə bu dərman xəstəliyi dəf edir”* ifadəsi işlənilir” [6: 3]. Hesab edirik ki, tibbnamələrdə rast gəlinən bu məqam – dini rəvayətlərdən istifadə, dua, cadu, sehr və s., əslində dini dünyagörüşlə deyil, xalq təbabətinin özünün mahiyyətcə inanca, ənənəyə əsaslnamasından qaynaqlanır. Çünki burada praktikadan daha çox, sosiumun üzvlərinin daşıdığı dünyagörüş, inanc sistemi, ənənəvi davranış, düşüncə və stereotiplərin təsiri özünü göstərir. Odur ki, ənənəvi xalq təbabəti və tibbnamələrdəki informasiyalar – xəstəliklərin diaqnostikası, müalicəsi və qarşısının alınması ilə bağlı bilik bütün hallarda sosial-mədəni mühitlə birbaşa bağlıdır. Şübhəsiz ki, XXI əsrdə virtual dünyaya “köç” edən, burada özünə “ev-eşik”, “yurd-yuva” quran, “virtual sosium” formalaşdıran müasir insan [4: 124] rəqəmsal dünyada özünəməxsus ənənələri, dünyagörüş və inanc sistemi, sosial-psixoloji kompleks və stereotipləri ilə mövcuddur. Bu o deməkdir ki, rəqəmsal dünyadakı insan yenə də inanc və qorxuları, emosional-psixoloji münasibəti ilə öz mövcudluğunu davam etdirir. Belə bir gerçəklik bir neçə aspektdən diqqəti cəlb edir:

*Birincisi, insan öz düşüncə və davranışları, ənənəvi dünyagörüş və inancları, o cümlədən, daşıdığı tibbi biliklə bərabər virtual dünyaya, rəqəmsal aləmə transformasiya olunur;*

*İkincisi, İnternetin sürətli kommunikasiya və çoxparametrli imkanları hesabına əvvəlki mərhələlərdə daha çox lokal mühit və məkanlarda mövcud olan xalq təbabəti hazırda müxtəlif formalarda (audio, video, hipermətn, multimedia) olmaqla intəhasız şəkildə yayıla bilir;*

*Üçüncüsü, insan-təbiət münasibətləri çərçivəsində ortaya çıxan xalq təbabəti və türkəçarələr rəqəmsallaşmaqla unudulmaq, yox olmaq təhlükəsindən xilas olur;*

*Dördüncüsü, İnternetin interaktiv ünsiyyət – iştirakçı sosial şəbəkə tipologiyası hər cür informasiyanın müzakirəsi və mübadiləsinə, o cümlədən, xalq təbabəti ilə bağlı ənənəvi biliyin rəyləşdirilməsinə, əks əlaqə və geridönüşlərlə (feedback) zənginləşməsinə şərait yaradır;*

İnternet istifadəçiləri artdıqca virtual məkan müxtəlif bölgələrə, ailə və nəsillərə xas olan müalicə praktikaları, təbabətə və türkəçarəyə dair biliklərlə zənginləşir. Nəzərə alsaq ki, hazırki çağda İnternet, sosial şəbəkələr həm də xalq təbabəti və türkəçarə, sağlam həyat, sağlam qida, ənənəvi müalicə üsulları ilə məşğul olan, bu peşədən biznes məqsədi ilə istifadə edənlər üçün reklam, marketinq və qazanc imkanı yaradır, bu halda İnternet mühiti həm də maraqlı tərəflərin məqsədli fəaliyyəti nəticəsində bu tipli resurs, informasiya və kontentlərlə dolub-daşır. Təbii ki, burada xalq təbabəti və türkəçarə üsullarından sui-istifadə edən, insanları aldatmaqla özünün maddi maraqlarını həyata keçirən fərd və qruplara da rast gəlmək mümkündür. Yaxud sosial şəbəkələrdə xalq təbabəti və türkəçarə üsullarına keçmişin qalığı, lağ-lağı, ironiya mənbəyi kimi baxan, bu tipli kontentləri ələ salan mövqeyə də rast gəlmək mümkündür. Eləcə də, bir tərəfdən

lokal mühitlərdən, digər tərəfdən isə qlobal aləmdən gələn yeni informasiyalar xəstəliklər, onların müalicə üsulları və qarşısının alınması ilə bağlı yeni – hibridləşmiş biliklər ortaya çıxarır ki, bu da ənənədən fərqli, spesifik xarakterə malik olur. Beləliklə, ənənəvi xalq təbabətinin rəqəmsallaşması, eyni zamanda İnternetdə rəqəmsal tibbi folklorun meydana gəlməsi, bütövlükdə bu tipli informasiyaları ehtiva edən Big Data-nı formalaşdırır:

1. Ənənəvi xalq təbabəti və türkəçarə üsulları real sosial mühitdən virtual dünyaya transformasiya olunur – rəqəmsal xalq təbabəti resursları ortaya çıxır;
2. Əlyazmalaşmış, “naməlşmiş” xalq təbabəti və türkəçarəyə dair kollektiv mədəni yaddaş rəqəmsallaşaraq virtual dünyada əks olunur;
3. Virtual sosial şəbəkələr hesabına lokaldan qlobal doğru dəyişən xalq təbabəti ilə bağlı biliklər əks əlaqə və geridönüşlər hesabına müzakirə olunaraq rəyləşdirilir;
4. İnternetin açıq, eləcə də çoxdilli mühit olması Azərbaycan xalq təbabətinə məxsus biliyin qlobal platformada yayılmasına şərait yaradır.

Təbii ki, Azərbaycandilli virtual mühitdə xalq təbabəti və rəqəmsal tibbi folklor üzrə meydana gələn ifrat verilənlər – Big Data onun çoxparametrli intellektual analizi üçün də geniş imkanlar yaradır.

İlk növbədə Azərbaycandilli virtual sosial şəbəkələrdə – sosial media mühitində xalq təbabəti ilə bağlı kontentlərə verilən reaksiyaların – neqativ, pozitiv, neytral və s.-nin analizi əsasında sosial eksperimentlər aparmaq mümkündür. Əks əlaqə və geridönüşlər, yəni **rəylərin intellektual analizi əsasında** hər hansı bir xəstəliklə bağlı xalq təbabətinin təqdim etdiyi “reseptin” effektivliyini müəyyənləşdirmək mümkündür. Bütövlükdə, **rəqəmsal tibbi folklorun taksonomiyası**, yəni İnternet mühitində yaranan rəqəmsal tibbi folklorik məzmunun sistemləşdirilməsi, müxtəlif parametrlər – forma, məzmun, funksiya, sosial kontekst üzrə təsnifi aparıla bilər. Bu isə, rəqəmsal tibbi folklorun meydana gəlməsini şərtləndirən sosio-texnoloji və texno-kulturoloji amillərin, psixososial ehtiyacların anlaşılması, ənənəvi xalq təbabəti ilə rəqəmsal tibbi folklor arasında əlaqələrin müəyyənləşdirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

## NƏTICƏ

Nəzərə almalıyıq ki, tibb, səhiyyə sahəsi birbaşa olaraq, sosial sahədir. Həkim-pasiyent münasibətləri sosial-mədəni münasibətlər sferasına daxildir. Burada yaranan sosial-mədəni mühit isə, informasiya və biliklərin müxtəlif şəkillərdə, o cümlədən yalan, şayiə və s. formada da yayılmasına şərait yaradır. Xüsusilə də burada nəzərə alınmalı məqam xəstəlik, ölüm-itim təhlükəsi və qorxusu zəminində hekayələrin, əfsanələrin, folklorik reaksiyaların ortaya çıxması məsələsidir. Qorxu, emosional gərginlik, psixoloji narahatlıq xəstəliklər barədə stereotipik reaksiyaların ortaya çıxmasına səbəb olur.

Araşdırma nəticəsində məlum olur ki, sosial stereotiplər və milli mental dəyərlər, ictimai qınaq, mühafizəkar, aqressiv reaksiyanın təsiri və təzyiqi kollektiv sosial mühitdə xəstəliyin gizlədilməsi, müalicənin gecikdirilməsi və həyati təhlükələrin ortaya çıxması ilə nəticələnir.

“Ayıbdı”, “el içində rüsvay olarıq”, “camaat bizə nə deyər” və s. kimi sosial yarğılar sosial mühitdə mövcud olan mühafizəkar münasibətin ifadəsi, ənənəvi düşüncənin stereotipləri dəstəkləyən “rıçaq”larıdır ki, bu reallıq rəsmi tibbə “ögey” münasibətində mədəni metaforası kimi qəbul edilə bilər.

Xalq təbabəti, türkəçarə, xalq həkimliyi kimi inanca, ənənəvi düşüncəyə əsaslanan müalicə praktikaları eyni zamanda özündə zəngin kollektiv mədəni yaddaş, müdrik biliyi ehtiva edir. Empirik müşahidələrin nəticəsi kimi ortaya çıxan bu tipli təbabət üsulları hazırki çağda da öz əhəmiyyətini qoruyub saxlaya bilər.

Azərbaycan təbiətinin, ekoloji mühitinin məhsulu kimi ortaya çıxan dərman bitkiləri, bununla bağlı zəngin xalq təcrübəsi, xalq təbabəti sahəsində mövcud olan Big Data müasir dövrün intellektual analiz və emal texnologiyaları hesabına dəyərləndirilə və oradakı keyfiyyətli bilik əldə oluna bilər.

Bütövlükdə, ənənəvi bilik və düşüncə üzərində qurulan, kollektiv təbii intellektin məhsulu kimi ortaya çıxan, çoxsaylı təcrübə və sınaqlardan keçərək hazırki çağa gəlib çatan xalq təbabəti, türkəçarə və yaxud xalq həkimliyi, təkcə xəstəliklərlə müalicə, bioloji sağlamlıq mənasını ifadə etmir, bu inanca, tabu və yasaqlara, norma və qaydalara söykənən, etnosun aid olduğu mədəni sistem, etnik-milli kimlik, ənənəvi dəyərlər içərisində “komfortlu” yaşam tərzidir.

## ƏDƏBIYYAT


[1] Dundes, A. Who are the Folk? // “İnterpreting Folklore”. Bloomington: İndiana University Press, p. 1-19, 1980.

[2] Krawczyk-Wasilewska, Violetta. Folklore in the Digital Age: Collected Essays. Foreword by Andy Ross. Lodz, 2016.

[3] Qərbi Azərbaycan Folkloru III kitab. Bakı: Elm, 416 s., 2024.

[4] Quliyev H. Virtual mühitdə folklor: ənənə və kommunikasiya. Bakı: Sabah, 256 s., 2018.

[5] Merdin Ö.A. Geleneğin yeniden icadı: halk hekimliği ve dijital kültür ilişkisi. Dijital kültür – 2. Yeni medya-Küreselleşme-Hibridleşme-Dil-Edebiyat ve Halkbilimi araştırmaları. İstanbul: Arı Sanat, s. 177-206, 2020.

[6] Sultanov M., Fərzəliyev A. Ön söz. Məhəmməd Yusif Şirvani. Tibbnamə. Bakı: İşıq, 192 s., 1990